AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

Əlyazması hüququnda

FƏXRİYYƏ CAVANŞİR qızı RƏHİMOVA

# ÇAĞDAŞ AMERİKAN DETEKTİV JANRININ ƏDƏBİ-BƏDİİ XÜSUSİYYƏTLƏRİ (DƏN BRAUN YARADICILIĞI ƏSASINDA)

5718.01 – Dünya ədəbiyyatı (ABŞ ədəbiyyatı)

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2018

İş Azərbaycan Universitetinin Azərbaycan filologiyası və jurnalistika kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Qorxmaz Həsi oğlu Quliyev
filologiya üzrə elmlər doktoru, professor

Rəsmi opponentlər: Nailə Məmmədhüseyn qızı Sadıqova
filologiya üzrə elmlər doktoru, professor

Aygün Cahan qızı Məmmədova
filologiya üzrə fəlsəfə doktoru, dosent

Aparıcı təşkilat: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Dünya ədəbiyyatı və komparativistika şöbəsi

Müdafiə__________________ 2018-ci il saat_____-da Azərbaycan Dillər Universiteti nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.081 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat ____________________________2018-ci ildə göndərilmişdir.

D.02.081 Dissertasiya Şurasının elmi katibi,
filologiya üzrə elmlər doktoru, dosent Həmidə Əhməd qızı Əliyeva

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

*Mövzunun aktuallığı.* Nisbətən qısa inkişaf yolu keçdiyinə baxmayaraq detektiv ədəbi-bədii janr (XVII-XVIII əsrlərdə bəzi nümunələri yaradılsa da, bu janrın meydana gəlməsini bir qayda olaraq XIX əsrdə yazıb yaratmış amerikalı sənətkar Edqar Allan Ponun adı ilə bağlayırlar) qısa müddət ərzində böyük uğurlar qazanmış və elmi fantastika ilə yanaşı, geniş oxucu kütləsi tərəfindən rəğbətlə qarşılanan janra çevrilmişdir.

Ədəbi-bədii nümunələri birmənalı şəkildə "say-seçmə" və "marginal" tiplərə ayıran tədqiqatçılar detektiv ədəbiyyatın geniş şəkildə yayılmasını onun məhz "marginal" ədəbiyyata, yüksək estetik dəyərlərdən xəbəri olmayan insanların zövqünü oxşadığına görə geniş kütlənin rəğbətini qazana bilməsini iddia edirlər. Lakin bu tədqiqatçılar yaddan çıxarırlar ki, detektiv janrın nümunələri son dərəcə geniş oxucu auditoriyasına müraciət edir: heç də təsadüfi deyildir ki, məhz detektiv əsərlər say-seçmə intellektualların ən sevimli, ən üstün tutduqları nümunələrdir. Bizim fikrimizcə, bu, ilk növbədə detektiv janrın demokratizmi, ədəbi prosesin əsas inkişaf meylləri ilə ayaqlaşa bilməsi və öz ideya məzmunu və strukturu etibarilə yüksək mənəvi-əxlaqi dəyərlərə rəvac verə bilməsi ilə bağlıdır.

Detektiv janrın demokratizmi onun oxucu kütləsini bədii-estetik dəyərləri qavramaqdan imtina edib bütün oxuculara ünvanlanması ilə bağlıdır. Detektiv janr oxucudan xüsusi hazırlıq səviyyəsi, qavranılması üçün xüsusi biliklər tələb etmir, detektiv janrın nümunələri oxucudan ayıq olmağı, bütün intellektual potensialını səfərbər etməyi bacarmağı, müəlliflə intellektual yarışa girməyi tələb edir.

Bəzi tədqiqatçılar tərəfindən detektiv janr ədəbi prosesin magistral inkişaf yolundan kənarda qalan marginal janr hesab olunsa da, tədqiqatlar göstərir ki, bu janrı təmsil edən sənətkarlar ədəbi prosesdə baş verən dəyişiklikləri özünəməxsus şəkildə inikas edir, yəni digər ədəbi-bədii növlərlə ayaqlaşırlar. Belə ki, detektiv janrın inkişafında aşağıdakı üç mərhələni açıq-aydın qeydə almaq mümkündür: birincisi, detektivin klassik dövrü; bu dövr XIX əsrin ortalarından XX əsrin ortalarına kimi olan mərhələni əhatə edir; ikincisi, detektivin modernist dövrü: bu dövr keçən əsrin 1950-1970-ci illərini əhatə edir; üçüncüsü, detektiv janrın postmodernist dövrü; janrın inkişafında bu sonuncu mərhələ XX yüzilliyin 1970-ci illərində başlamış və bu günə qədər də davam edir.

Dissertasiya işində bütün bu üç dövrə aid olan sənətkarların yaradıcılıqları bu və ya digər dərəcədə araşdırılır. Buna görə, yeri gəldikcə, əyani şəkildə, konkret ədəbi-bədii nümunələrin timsalında onların

yaradıcılığını işıqlandırmaq niyyətindəyik. Hələlik yalnız onu qeyd etmək lazımdır ki, tədqiqatımızın əsas obyekti olan Dən Braunun yaradıcılığı həm zaman, həm də ideya məzmunu və poetikası baxımından məhz postmodernist dövrə aiddir. Lakin bununla yanaşı, Dən Braun əvvəlki mərhələlərin də aparıcı xüsusiyyətlərini əxz etmiş və özünəməxsus şəkildə sintetik detektiv nümunələri yaratmağa nail olmuşdur.

Aid olduğu mərhələdən asılı olmayaraq detektiv janrın nümunələri antik anlamda müəyyən nizam əsasında qurulmuş, kosmosda düzümün pozulması və xaosa çevrilməsi (cinayətin törədilməsi) və kosmosda nizam üçün məsuliyyət daşıyan şəxslərin (çox zaman xəfiyyələrin) səyi nəticəsində əvvəlki nizamın bərpa olunması, xaosun yenidən kosmosa çevrilməsi (cinayətin üstünün açılması) prinsipi əsasında qurulur. Bu, o deməkdir ki, hər bir detektiv nümunədə son nəticə etibarilə ədalət qələbə çalır. Detektiv janrın nümunələrində daim təkrar olunan bu prinsip – ədalətin olması – bəşər nəslinin fundamental niyyət və arzularına uyğun gəlir. Bu, sözsüz ki, detektiv əsərlərin uğurunu struktur və ideya məzmunu baxımından təmin edən əsas cəhətlərdən biridir.

Onu da qeyd etmək yerinə düşər ki, detektiv janrı faktiki olaraq humanitar material əsasında müasir fizika elminin sahələrindən biri olan sinergetikanın daim kosmosun xaosa, xaosun kosmosa çevrilməsi prinsipini ədəbi-bədii müstəvidə sübuta yetirir.

Bütün deyilənlər dissertasiya işinin mövzusunun aktuallığını sübuta yetirən faktlardır. Bu və ya digər məsələlər göstərir ki, dünya detektiv ədəbiyyatının görkəmli nümayəndəsi Dən Braunun bir yazıçı kimi xidmətləri təkcə Amerika Birləşmiş Ştatlarında, habelə ingilisdilli məkanda detektiv janrını inkişaf etdirməsi ilə məhdudlaşmır; o, ədəbi həyatı boyu dünya detektivinə töhfələr vermişdir.

Bu baxımdan yazıçının bir ədəbi sima kimi mürəkkəb və zəngin yaradıcılıq yolu dünya detektiv ədəbiyyatı kontekstində xüsusi şəkildə tədqiq edilib öyrənmək üçün geniş material verir. Onun əsərlərinin ideya-məzmun keyfiyyətlərini təhlil edib araşdırmaqla, müasir detektiv ədəbiyyatın tərkib hissəsi olan amerikan detektiv ədəbiyyatının formalaşmasındakı bədii-estetik qanunauyğunluqları elmi-nəzəri şəkildə müəyyənləşdirmiş olarıq. Elə bizim tədqiqatımızın aktuallığı da məhz belə amillərlə şərtlənmişdir.

*Tədqiqatın obyekti* Dən Braunun yaradıcılığı və "Da Vinçi şifrəsi" romanıdır.

*Tədqiqatın predmeti.* Dünya ədəbiyyatında detektiv janrın keçdiyi inkişaf yolunun işığında və bu yolun nəticəsi kimi Dən Braunun

yaradıcılığının detektiv xüsusiyyətlərinin üzə çıxarılması və konseptual baxımdan ümumiləşdirilməsi dissertasiya işinin predmetini təşkil edir.

*Tədqiqatın məqsəd və vəzifələri.* Dissertasiyanın əsas məqsədi Dən Braun yaradıcılığı əsasında Amerika ədəbiyyatında detektiv janrın formalaşması və inkişafı prosesini tədqiq etməkdir. Dən Braunun təhlil edib araşdırdığımız əsərləri əsasında onun amerikan detektivinə verdiyi töhfələri, habelə dünya detektiv ədəbiyyatında tutduğu mövqeyi elmi-nəzəri şəkildə dəyərləndirmək də bizim tədqiqat məqsədimizə daxildir. Bu məqsəd aşağıdakı vəzifələrin həyata keçirilməsini tələb edir:

- Dünya detektiv ədəbiyyatının tarixən yaranmasının zəruri sosial mənəvi şərtlərini müəyyənləşdirmək;
- İngilis və amerikan ədəbiyyatında detektiv janrın xüsusiyyətlərinin ideya estetik köklərini göstərmək;
- Edqar Allan Ponun yaradıcılığında "romantik" detektiv janrının ədəbi-bədii xüsusiyyətlərini üzə çıxarmaq;
- Artur Konan Doylun yaradıcılığında "rasionalist" detektiv janrın xüsusiyyətlərini üzə çıxarmaq;
- Aqata Kristi və H.K.Çestertonun yaradıcılıqlarında "intuitiv" detektivin xüsusiyyətlərini üzə çıxarmaq;
- Dən Braunun həyatını və ədəbi fəaliyyətinin əsas mərhələlərini öyrənmək;
- Dən Braunun zəngin yaradıcılığından, məhsuldar ədəbi fəaliyyətindən müəyyən nümunələri, ayrı-ayrı əsərləri ideya-məzmun baxımından təhlil etmək;
- Dən Braunun tədqiqata cəlb edilmiş detektiv əsərlərində təcəssüm olunan ümumiləşdirici simvolikanı süjet və kompozisiya elementlərində üzə çıxarmaq;
- Dən Braunun ədəbi qəhrəmanı olan Robert Lenqdonu detektiv janrda yeni insan konsepsiyası qismində səciyyələndirmək;
- Dən Braunun amerikan detektiv ədəbiyyatında tutduğu yeri və dünya detektiv janrına gətirdiyi yenilikləri açıb göstərmək.

*Tədqiqat işinin fərziyyəsi.* Çağdaş Amerika ədəbiyyatında detektiv janrın ədəbi-bədii xüsusiyyətləri ilə bağlı aşağıdakı fərziyyələri irəli sürmək olar:

1) İngilis detektivinin mərkəzi mövzusu olan Xeyirlə Şərin mübarizəsi onun janr özünəməxsusluğunu müəyyən edir.

2) XIX əsrdə ingilis ədəbiyyatının aparıcı cərəyanları romantizm və realizm yaradıcılıq metodlarının bir-birini əvəzləməsi detektiv nümunələrin

ədəbi-bədii xüsusiyyətlərinə təsir edir.

3) Dən Braunun "Da Vinçi şifrəsi" sintetik romanı detektiv roman janrının gələcək inkişaf perspektivlərinin müəyyən olunmasında əhəmiyyətli rol oynayır.

*Tədqiqatın işlənmə dərəcəsi.* Ümumiyyətlə, Azərbaycan ədəbiyyatşünaslığında detektiv janr haqqında bir sıra elmi əsərlər yazılsa da, ədəbiyyatşünaslığımızda Amerika detektiv tarixi, müasir mənzərəsi və bədii xüsusiyyətləri ilə bağlı tədqiqatlar yoxdur. Görkəmli detektiv ustası Dən Braunun da yaradıcılığı, İlqar Fəhminin [1] məqaləsi istisna olmaqla tədqiqatçıların diqqətini cəlb etməmişdir.

Bizim tədqiqata qədər bu görkəmli detektiv yazıçının yaradıcılıq yolu, ədəbi bioqrafiyası bütöv şəkildə, sistemli olaraq monoqrafik səviyyədə ədəbi-elmi ictimaiyyətə çatdırılmamışdır.

Eyni zamanda, onu da etiraf etməliyik ki, son dərəcə məhsuldar sənətkar olan Dən Braunun zəngin yaradıcılığını bir dissertasiyada, hətta bir neçə monoqrafiyada belə əhatə etmək mümkün deyil; biz də qarşımıza belə bir məqsəd qoymamışıq.

Onu da qeyd etmək yerinə düşər ki, ümumiyyətlə, detektiv janrı Azərbaycan ədəbiyyatşünaslığında yalnız Lalə Məcidovanın "İngilis ədəbiyyatında detektiv janrın formalaşması prosesi (Aqata Kristinin yaradıcılığı əsasında)" [2] və İlhamə Məmmədovanın "Müasir ABŞ və Azərbaycan ədəbiyyatında detektiv janrın yeni çalarları (Ayra Levin və Çingiz Abdullayev yaradıcılığı əsasında)" [3] mövzusunda namizədlik dissertasiyalarında araşdırılmışdır.

*Tədqiqatın elmi yeniliyi.* Müasir ədəbi prosesin mühüm tərkib hissəsi olan, bir çox cəhətdən bədii söz yaradıcılığının inkişaf istiqamətlərini müəyyənləşdirən detektiv janrın, o cümlədən onun görkəmli nümayəndəsi Dən Braunun yaradıcılığının Azərbaycan ədəbiyyatşünaslığının maraq dairəsindən kənarda qalması bizi Dən Braunun yaradıcılığının müəyyən ümumiləşdirmələr kontekstində araşdırmaq zərurəti ilə üz-üzə qoydu.

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, Dən Braun detektiv janrının

---

[1] Fəhmi İ. Da Vinçinin kodu və ya Dən Braunun "feminist" marşı // Körpü, 2006, №1, s.259-263

[2] Məcidova L. İngilis ədəbiyyatında detektiv janrın formalaşması prosesi (Aqata Kristinin yaradıcılığı əsasında): Filol.fəl.dok. … dis. Bakı, 2005, 125 s.

[3] Məmmədova İ.M. Müasir ABŞ və Azərbaycan ədəbiyyatında detektiv janrın yeni çalarları (Ayra Levin və Çingiz Abdullayev yaradıcılığı əsasında): Filol.fəl.dok. ... dis. avtoref. Naxçıvan, 2010, 23 s.

inkişaf yolunun sonuncu postmodernist mərhələsinin nümayəndəsi olsa da və yaradıcılığında onun aparıcı poetik prinsiplərini həyata keçirməyə cəhd göstərsə də, mahiyyət etibarilə janrın inkişafının iki əvvəlki mərhələsinin nailiyyətlərini və təcəssüm xüsusiyyətlərini ehtiva etmişdir. Sənətkarın yaradıcılığının nəzəri fikir tərəfindən hələ bu vaxta qədər fiksə olunmamaq xüsusiyyətinin üzə çıxarılması və məhz bu görmə bucağından detektiv janrın inkişaf tarixinə salınması dissertasiya işinin əsas elmi yeniliyidir.

*Tədqiqatın metod və metodologiyası.* Dissertasiya üzərində işləyərkən təsviri, müqayisəli-tipoloji və müqayisəli-tarixi metodlardan istifadə edilmişdir. Görkəmli nəzəriyyəçi alimlərin və ədəbiyyatşünasların fikirləri tədqiqatın əsas elmi bazasını təşkil edir.

*Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.* Tədqiqatın nəzəri əhəmiyyəti müasir ədəbi-estetik fikri düşündürən mühüm bir problemə – "elitar" və "marginal" janrlar arasında qarşılıqlı münasibətlərə amerikan detektiv nümayəndəsi Dən Braunun yaradıcılığı timsalında aydınlıq gətirmək cəhdi ilə bağlıdır. Dissertasiyanın nəzəri əhəmiyyəti ondadır ki, detektiv ədəbiyyatla və Dən Braun yaradıcılığı ilə bağlı gələcək tədqiqatlarda, habelə xarici ölkələr ədəbiyyatına və ədəbiyyat nəzəriyyəsinə dair kurslarda onun əsas müddəa, nəticə və ümumiləşdirmələrindən istifadə edilə bilər. Bu tədqiqat əsəri, zənnimizcə, amerikan ədəbiyyatının tarixi kursunda bir dərs vəsaiti kimi də tələbələr və aspirantlar üçün praktik dəyər kəsb edir.

*Müdafiəyə çıxarılan əsas müddəalar:*

1. Detektiv janr yarandığı gündən bu günə kimi, ümumədəbi prosesi özünəməxsus şəkildə əks edərək klassik, modernist və postmodernist mərhələlərdən keçmişdir.
2. Detektiv janrın nümunələrində hadisələr cinayət və cəza qütbləri arasında cərəyan edirlər ki, bu da ənənəvi ədəbi nümunələrdən fərqli olaraq, onları müəyyən sxemlər və düsturlar çərçivəsinə sıxışdırmağa imkan verir.
3. Detektiv janrın təkamülü prosesində "rasionalist" təhqiqat metodu "irrasionalist" ("intuitiv") üsulu ilə əvəz olunmuşdur ki, bu da humanitar fikirdə gedən proseslərin əsas istiqamətinə uyğun gəlir.
4. Detektiv janrın nümunələrinin strukturu oxucunun diqqətini gərginlikdə saxlamaq məqsədi güddüyünə görə, onun müxtəlif üsullarla təhqiqat prosesinə cəlb olunması böyük əhəmiyyət kəsb edir.
5. Detektiv janr öz inkişafının postmodernist mərhələsində "cinayət və cəza" sxemi çərçivəsindən çıxaraq, dövrün aktual sosioloji, ideoloji və humanitar-elmi problemlərinə özünəməxsus şəkildə cavab verməyə cəhd edir.

*Dissertasiyanın aprobasiyası.* Dissertasiya işi Azərbaycan Universitetinin Azərbaycan filologiyası və jurnalistika kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın başlıca müddəaları və yekun nəticələri dissertantın məqalələrində, habelə respublika və beynəlxalq konfranslardakı çıxışlarının tezislərində öz əksini tapmışdır.

*Dissertasiyanın strukturu.* Tədqiqat işi giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində mövzunun aktuallığı, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, fərziyyəsi, tədqiqatın işlənmə dərəcəsi, elmi yeniliyi, nəzəri-metodoloji əsası, nəzəri-təcrübi əhəmiyyəti əsaslandırılır, tədqiqat işinin aprobasiyası və strukturu haqqında məlumat verilir.

İki fəsildən ibarət olan dissertasiyanın *birinci* fəsli *"Detektiv janrın yaranması və xüsusiyyətləri"* adlanır. Bu fəsildə dissertasiya işinin əsas tədqiqat obyekti olan Dən Braunun yaradıcılığının meydana gəlməsini şərtləndirən bədii ədəbiyyatda detektiv janrın klassik dövrünün aparıcı xüsusiyyətləri araşdırılır, detektiv janrda baş vermiş bir sıra köklü dəyişikliklərə baxmayaraq, bu günə qədər öz əhəmiyyətini qoruyub saxlamış təməl prinsiplər nəzərdən keçirilir.

Mahiyyət etibarilə təşəkkül tapdığı dövrdən başlayaraq ədəbi-bədii fikrin mərkəzi mövzusu olmuş Xeyirlə Şərin, Kosmosla Xaosun mübarizəsi və qarşılıqlı şəkildə bir-birini tamamlaması ideyasını detektiv janr bütün tarixi boyu özünəməxsus şəkildə əks etdirmişdir. Humanitar düşüncənin əsas problemi olan "Günahkar kimdir?" sualı detektiv əsərlərin müəlliflərinin ortaya qoyduqları və cavabını müxtəlif kontekstlərdə tapmağa cəhd göstərdikləri əzəli-əbədi sualdır. Detektiv janrın poetik prinsiplərinə uyğun yazılmış ilk nümunələrdə süjet xətti birbaşa müşahidə olunmayan hadisələrin gedişinin naməlum detalları, bir qayda olaraq, qeyri-adi analitik keyfiyyətləri ilə fərqlənən xəfiyyə tərəfindən əvvəlcə dumanlı fərziyyə, sonra isə getdikcə dəqiqləşən əsl həqiqətin bərpası əsasında qurulur. Nəticədə, əsər ilk səhifələrdə oxucuya sirr kimi təqdim olunan cinayətin üstünün açılmasına meydan açan məntiqi problemin həlli kimi təşkil olunur. Bu baxımdan detektiv janr antik dövrdən bəri bəşər nəslinin ədəbiyyat, fəlsəfə, tarix vasitəsilə dərk etməyə cəhd göstərdiyi mənəvi-əxlaqi problemləri özünəməxsus vasitələrlə həll edir.

Detektiv janrın tədqiqatçıları onun ideya məzmunu və poetika

baxımından təkamülünü aşağıdakı dövrlərə bölürlər: 1) detektivin klassik dövrü (XIX əsrin ortalarından XX əsrin ortalarına qədərki mərhələ); 2) detektivin modernizm mərhələsi (1950-1970-ci illər); 3) detektivin postmodernizm mərhələsi (1970-ci illərin ortalarından bu günə qədər).

Klassik mərhələdə detektiv nümunələrin ideya məzmununda və fəlsəfi təməlində müşahidə olunan bir sıra köklü dəyişikliklərin baş verməsini nəzərə alaraq onu iki yarımmərhələyə bölmək mümkündür: 1) detektiv janrın irrasionalist dövrü; amerikalı sənətkar E.A.Ponun hekayələri bu dövrün səciyyəvi nümunələri hesab oluna bilər; 2) detektiv janrın rasionalist dövrü; A.Kristi və A.Konan Doylun əsərləri bu dövrü təmsil edirlər.

Detektiv janrın fəlsəfəsində və poetikasında müşahidə olunan irrasionalist dünyadərkin rasionalist dünyadərklə əvəz olunması XIX əsrdə ədəbi-bədii fikirdə romantik və realist yaradıcılıq metodlarının bir-birini əvəzləməsinin təcəssümüdür.

Bununla yanaşı, artıq klassik detektivin ilk nümunələrində bir yaradıcılıq metodu kimi onu həm romantizmdən, həm də realizmdən fərqləndirən bir xüsusiyyət nəzərə çarpır: personajları bir fərd kimi səciyyələndirən, onları bütün insanlardan fərqləndirən cəhətlər detektiv müəlliflərinin diqqət mərkəzindən kənarda qalırlar. Belə ki, klassik detektiv janrın banisi E.A.Po özünün məşhur Düpen obrazında özünəməxsus şəkildə dünyanı duyan və dərk edən bir fərdi deyil, ilk növbədə "düşünən maşın"ı görürdü. Bu detektiv janrın nümunələrinin öncədən işlənib hazırlanması düsturuna uyğun olaraq apriori müəyyən olunmuş poetik qaydalar əsasında yazılması üçün meydan açır. Detektiv janrın tədqiqatçıları Van Daynın "detektiv hekayə" yazmağın 20 qaydası[1] və Ronald Noksun detektiv janr qarşısında irəli sürdüyü 10 tələb[2] detektivin bir janr kimi formalizə olunmağa meylini əks etdirir.

Detektiv janrın müəyyən düsturlara asanlıqla uyğunlaşması nəticəsində belə bir müddəa hasil olur ki, əgər sənətkar irəli sürülən qaydalara dəqiq şəkildə riayət edirsə, labüd olaraq oxucunun marağını cəlb edən detektiv əsər yaranır. Yaxud əksinə, bu və ya digər qayda pozularsa, əsərin uyğunsuzluğu təmin olunur.

Bu baxımdan E.A.Ponun detektivin klassik nümunələrini yaratmaq sahəsində uğurları, onun öncədən janrın optimal prinsipləri əsasında

---

[1]ru.wikipedia.org/wiki/%D0%94%D0%B5%D1%82%D0%B5%D0%BA%D1%82%D0%B8%D0%B2

[2] writingclasses.com/InformationPages/index.php/PageID/303

paradiqmasını işləyib hazırlaması və ona dəqiqliklə riayət etməsi ilə izah olunur.

Məlumdur ki, amerikalı sənətkar 1840-1845-ci illər arasında dünya ədəbiyyatında yeni və qısa zaman ərzində ən populyar janrın yaranmasına təkan vermiş beş novella yazmışdır. Bu hekayələrdə müəllif ədəbi-bədii təkamülün əvvəlki mərhələsində müstəqil şəkildə mövcud olan iki bədii prinsipin – detektiv və "qorxulu hekayə" başlanğıclarının birləşməsinə və üzvi vəhdət təşkil etməsinə nail olmuşdur. Bu "hibrid" janr prinsipləri əsasında yaradılmış əsərlərdə mübhəm, izah olunması qeyri-mümkün olan qətl hadisəsi baş verir. Sonra isə detektiv süjetin kanonları əsasında qurulmuş mexanizm hərəkətlə gəlir, tədricən qətl hadisəsinin detalları açıqlanır və son nəticə etibarilə cinayətin sirri açılır. Hər üç novellada Düpen obrazının timsalında sonralar dünya ədəbiyyatında müxtəlif variantları meydana gəlmiş ekssentrik xəfiyyə obrazının düsturu işlənib hazırlanmış və oxuculara təqdim olunmuşdur. Bu düstura uyğun olaraq sarsılmaz və dəmir məntiqi ilə ən qaranlıq və mübhəm problemləri belə işıqlandırmağa qabil olan Düpeni hər yerdə onun sadəlövh dostu müşayiət edir.

Sənətkar bu sadəlövhlükdən baş qəhrəmanın qeyri-adi istedadını vurğulamaq məqsədi ilə istifadə edir. Sonralar bir çox yazıçılar bu düsturdan uğurla istifadə etmişlər. A.Konan Doylun məşhur doktor Vatson obrazı buna misal ola bilər.

E.A.Ponun hekayələrində sonralar detektiv janrın strukturu üçün böyük əhəmiyyət kəsb etmiş cinayət hadisəsinin mahiyyətinə nüfuz etmək iqtidarında olmayan rəsmi polis orqanları ilə son dərəcə çevik özəl xəfiyyə orqanları arasında rəqabət və yarış və bu yarışda labüd şəkildə özəl xəfiyyənin parlaq intellektinin qalib gəlməsi mövzusunun da ilk və son dərəcə uğurlu variantı işlənib hazırlanmışdır. Düpen obrazında bədii təcəssümünü tapmış bu mövzu sonralar A.Konan Doyl və A.Kristi tərəfindən davam etdirilmişdir.

E.A.Ponun hekayələrində özəl xəfiyyənin daim rəsmi polis orqanları üzərində qələbə çalması Düpenin iki əsas məntiqi prinsipə daim riayət etməsi ilə əlaqələndirilir: 1) birindən başqa bütün digər variantlar istisna ediləndə məhz həmin variant ehtimal ki, həqiqəti üzə çıxaran yeganə variant olacaq; 2) ilk baxışdan cinayət hadisəsi nə qədər mürəkkəb və dolaşıq görünsə də, onu həll etmək bir o qədər asan olmalıdır.

E.A.Ponun Düpen obrazının timsalında məhz özəl xəfiyyənin zəngin təfəkkürə malik olması, dərin və hərtərəfli təhlil etmək bacarığı onun ön plana çıxarılmasına, intiqamın bütün xətlərini öz əlində toplamasına səbəb

olur. Bu baxımdan Düpen obrazı sxematik olsa da, mücərrəd deyil: onu yalnız intellekti təhlil etmək qabiliyyətinə müncər etmək qeyri-mümkündür. Düpen bir çox cəhətdən özünün əsl dəyərini başa düşən, yüksək qürur hissinə malik ağıllı və təmkinli insan nümunəsidir.

Özəl xəfiyyənin və polisin antaqonist obrazlar qismində təqdim olunması sayəsində E.A.Po detektiv janrın yaradıcılıq düsturunu ortaya qoymuş və onun klassik istiqamətinin banisinə çevrilmişdir. "Klassik" intellektual detektiv janrın nümunələrində əsas cinayət hadisələri, bir qayda olaraq, əsərin başlanğıcında baş verir, sonra isə aparılan təhqiqat əməlləri nəticəsində tədricən cinayətin sirri açılan kimi dəlildən-dəlilə doğru hərəkət edib irəliləyir. Oxucuya gəldikdə isə, onda elə ilk andan xəfiyyəyə, xüsusilə onun intellektual qabiliyyətinə böyük rəğbət formalaşır və o, təhqiqatı aparanla bərabər hüquqlu şəxs kimi prosesdə iştirak edir, cinayətin üstünün açılmasında müstəqil olaraq çalışmaq imkanı əldə edir və bir qayda olaraq, dalana dirənən müxtəlif versiyalar irəli sürür. Oxucunu maraqlı şəxsə çevirib fəallaşdırdıqca bu istiqamətin gücü analitik metodların kəskinliyi sayəsində ön plana çəkilməsində və kəskinliyində, çatışmazlığı isə yeknəsəkliyindədir.

E.A.Po Düpen obrazı ilə dünya ədəbiyyatında ilk dəfə klassik xəfiyyə obrazı yaratmışdır. Onun xələfləri bu obraza mükəmməl nümunə qismində daim müraciət etmiş, onun bu və ya digər xüsusiyyətləri ilə səsləşən personajlar yaratmışlar. Düpen yorulmadan zehnini, heç bir məntiqə tabe olmayan faktlardan yeganə düzgün nəticə çıxarmaq qabiliyyətini inkişaf etdirir və son nəticə etibarilə rastlaşdığı hər hansı bir müəmmanın sirrini açmağa qadir olduğunu sübuta yetirir. Düpenin "intellektual" magiyası onun xırdalıqları ətraflı şəkildə nəzərdən keçirməsində, ilk baxışdan əhəmiyyətsiz görünən detallara diqqət verməsində, faktların düzümünə əsaslanaraq normal məntiq baxımından ağlabatmaz, lakin düzgün nəticəyə yönəldən fərziyyələri ortaya qoyub onlardan çıxış etməsində özünü büruzə verir. O, cinayətkar rəqibinin xarakterini, vərdişlərini, intellektual və mədəni səviyyəsini nəzərə alır, qeyri-adi intuisiyası tələb edəndə mahiyyəti etibarilə stereotiplərə əsaslanan "sağlam düşüncənin" əleyhinə qətiyyətlə qərar çıxarmaqdan çəkinmir.

E.A.Ponun detektiv hekayələrinə xas olan analitik təfəkkür, sarsılmaz məntiq, ilk baxışdan dağınıq və dolaşıq görünən hadisələri zəncirvari düzmək bacarığı onun xələfləri, ilk növbədə A.Konan Doyl tərəfindən yaradıcı şəkildə əxz olunmuş və sonralar detektiv janrın struktur prinsiplərinə çevrilmişdir.

İngilis yazıçısı A.Konan Doyl bir sıra tarixi, elmi fantastik, mistik

əsərlərin müəllifi olsa da, dünya ədəbiyyatında ilk növbədə detektiv janrın görkəmli nümayəndəsi kimi ad çıxarmışdır. Onun yaratdığı Şerlok Holmos obrazı həm cavanların, həm də yaşlı nəslin ən çox sevdikləri ədəbi qəhrəmanlardır.

Konan Doylun süjet qurma və kompozisiya yaratma məharəti barədə deyilmiş aşağıdakı fikir maraqlıdır: "Konan Doyl Şerlok Holms haqqındakı hekayələr silsiləsində detektivi kamillik səviyyəsinə qaldıraraq bir süjet modelini cilalamışdır. Əsərin əvvəlində Holmsun və doktorun mühakimələri gəlir. Hekayə əslində gerçəkliyin və yaxud maraqlı şəxsin peyda olması ilə başlanır, onun peyda olması çox gözlənilən olur və Holmsun "İndi o gələcək!" nidası ilə əvvəlcədən xəbər verilir. Sonra təhqiqat prosesi təsvir edilir, tələ hazırlanır və cinayətkar zərərsizləşdirilir. İşin sonrakı dönəmi açılmış yumaq kimi qarşımızda qoyulur, xəfiyyə tərəfindən ətraflı şəkildə izah edildiyindən tamamilə aydınlaşır. Bitmiş cinayət işi kartotekaya göndərilir və Holmsun yaddaşından təmiz silinir. Çox vaxt oxucu da hekayələrin təfərrüatlarını tez unudur, lakin o əsas olanı – mütaliədən həzzi, ağlın məntiq və çevikliyində faktlara çox ciddi əməl etməyə əsaslanmış, təxəyyülündə məşq üçün tapşırıq almışdır".[1]

Yüksək müşahidəçilik qabiliyyətinə malik A.Konan Doyl başa düşürdü ki, bəzi hallarda gerçək cinayət hadisələri sənətkar təxəyyülünün məhsulu olur və bədii nümunələrdə təsvir olunan hadisələrdən qat-qat dolaşıq və sirli olurlar. Real xəfiyyələr belə hallarda heç bir yazıçının ağlına gəlməyən üsullardan və vasitələrdən istifadə edib bu cinayətin üstünü açmalı olurlar. Məhz buna görə də A.Konan Doylun baş qəhrəmanı sənətkar təxəyyülünün məhsulu olmaqla yanaşı, həm də real həyatda prototipi olan bir obrazdır. Bu baxımdan da ingilis yazıçısı özünün Şerlok Holms obrazını E.A.Ponun Düpen obrazının modeli əsasında yaratmışdır.

Bir qayda olaraq A.Konan Doyl detektiv hekayələrini Holmsun özünün və onun sadəlövh dostu doktor Vatsonun yenicə tanış olduqları cinayətlə bağlı bir-birindən fərqli mühakimələri ilə başlayır. Sonra rəsmi orqanlar tərəfindən aparılan təhqiqat prosesi təsvir olunur, Holms cinayətkara tələ hazırlayır və onun zərərsizləşdirilməsinə nail olur. Təhqiqat işinin son dönəmində Holms cinayətin baş verməsi səbəblərini açıqlayır və onun bütün təfərrüatlarını nəzərə çarpdırır. A.Konan Doylun qəhrəmanını oxuculara sevdirən əsas cəhət onun zəkası, dərin müşahidəçilik və təhlil etmək bacarığı, hadisələri qeyri-standart görmə bacarığından dəyərləndirə

---

[1] Шабловская И.В. Конан Дойл и Шерлок Холмс. Артур Конан Дойл. Записки о Шерлоке Холмсе. Минск: Мятацкая литература, 1984, с.10

bilməsi ilə bağlıdır. Məhz bu keyfiyyətlər ona imkan verir ki, insanların adətən əhəmiyyət verməyib yanından keçdikləri ən xırda detallara diqqət yetirsin və təhqiqat prosesində onların əhəmiyyətini üzə çıxartsın.

A.Konan Doylun əsərlərində Holmsun dostu doktor Vatson obrazının da əsərin bədii strukturunda böyük rolu var: bu obrazın təbiətinə xas olan "anadangəlmə" sadəlövhlük Holmsun qeyri-adi qabiliyyətini vurğulamağa və nəzərə çarpdırmağa xidmət edir. Qeyd etmək lazımdır ki, dərin müşahidəçiliyə və sarsılmaz məntiqə malik özəl xəfiyyə Holmsun daim sadəlövh obrazı ilə müşahidə olunması A.Konan Doyldan sonra dünya ədəbiyyatında yaradılan detektiv nümunələrdə bu və ya digər kontekstdə mütəmadi şəkildə təkrar olunmuş və faktiki olaraq bu janrın struktur xüsusiyyətlərinə çevrilmişdir.

İngilis yazıçısı Hilbert Kiyt Çesterton öz sələfi A.Konan Doylun "rasionalist" təhqiqat metodundan imtina edib cinayətin üstünü intuisiyasının diktə etdiyi üsullarla açmağa üstünlük verməklə təkcə xəfiyyə obrazının deyil, müəyyən mənada detektiv janrın bədii strukturunda köklü dəyişikliklər etməyə nail olmuşdur.

Onun geniş yaradıcılığında xüsusi yer tutan detektiv yönümlü hekayələrinin baş qəhrəmanı keşiş ata Şerlok Holmsdan fərqli olaraq fövqəlinsan olmaq iddiasından son dərəcə uzaqdır. Bu təvazökar, sadə, özünü nəzərə çarpdırmağa can atmayan şəxs öz müdrikliyi ilə seçilir. A.Konan Doylun qəhrəmanı ilə müqayisədə Braun ata cinayətin üstünü açmaq prosesində məntiqi detallardan daha çox onun törədilməsinin mənəvi səbəblərini araşdırmağa üstünlük verir. Məhz bu cəhət bizə onun klassik detektiv nümunələrində geniş şəkildə istifadə olunan deduktiv metoddan imtina edib induktiv metoda üstünlük verdiyini söyləməyə əsas verir.

Bununla yanaşı H.K.Çestertonun klassik detektiv janrının estetik prinsiplərindən tamamilə inkar etdiyini söyləmək olmaz. Şerlok Holmsun və Braun atanın təhqiqat metodlarında nəzərə çarpan bəzi ümumi cəhətlər Çestertonun klassik detektiv janrının ənənələrini uğurla davam və inkişaf etdirdiyini sübuta yetirir. Hər iki xəfiyyə cinayətin üstünü açmaq üçün ən kəsə yolları axtarırlar. Bu da onların təhqiqat üsullarının istifadə etdikləri metoddan asılı olmayaraq səmərəli olmasına meydan açır. Hər iki özəl xəfiyyə cinayəti çözməyə başlayarkən tələsməməyə, təfərrüatlara diqqət etməyə, hər bir xırda cəhəti götür-qoy etməyə üstünlük verirlər. Bu hər hansı bir bədii əsərə, xüsusilə detektiv janrın nümunələrinə xas olan bir cəhətə – retardasiya priyomu vasitəsilə oxucunu əsərin sonuna kimi intizarda saxlamağa, onun marağını maksimum səfərbər etməyə imkan

yaradır. A.Konan Doylun əsərlərindən fərqli olaraq, H.K.Çestertonun hekayələri pessimist əhval-ruhiyyəyə, cinayətin aradan qaldırılması ovqatına köklənmişdir.

İngilisdilli ədəbiyyatda detektiv janrın həm məzmun, həm də bədii struktur baxımından inkişafında Aqata Kristi xüsusi yer tutur. Bu sənətkar böyük sələflərinin ənənələrini öz yaradıcılığında üzvi vəhdətdə birləşdirməyə, janrın kamil nümunələrini yaratmağa nail olmuşdur. Bu, onun bütün dünyada geniş oxucu kütlələrinin rəğbətini qazanmasına səbəb olmuşdur.

Aqata Kristinin yaradıcılığı haqqında kitab yazan tənqidçi Q.Ramzey belə bir fikir irəli sürür ki, yaxşı detektiv romanlar sosioloji araşdırmalar üçün gözəl tədqiqat əsərləridir. Çünki, burada həyatın elə incəlikləri təsvir edilir ki, onları ən maraqlı ensiklopedik kitablarda belə tapa bilməzsiniz.[1]

Aqata Kristinin əsərlərində həvəskar xəfiyyə təkcə cinayətin üstünü açmaqla kifayətlənmir, o, eyni zamanda bu və ya digər səbəbə görə rəsmi dövlət orqanları tərəfindən şübhəli şəxs kimi dəyərləndirilən "günahkar" insanların ləyaqətini mənəvi-əxlaqi dəyərlərin daşıyıcısı və müşahidəçisi kimi oxucuya təqdim edir.

Bu, onunla bağlıdır ki, Aqata Kristi bütün ömrü boyu rəhbər tutduğu mənəvi-əxlaqi normaların öz əsərlərində adekvat şəkildə təcəssüm olunmasına can atırdı. Ona, yalnız maraqlı süjet qurmaqla detektiv əsərin missiyasının yekunlaşdığını təsvir edən və ideya məzmunu baxımından heç bir tərbiyəvi əhəmiyyəti olmayan əsərlərin müəllifləri tərəfindən bəslənən soyuq münasibət bununla izah olunur. Nəticədə, Aqata Kristi cəmiyyətdə həlli müşkül problemlərin mövcud olduğunu, ayrı-ayrı sosial təsisatların insanları cinayətə sürüklədiyini başa düşsə də, bunu dünya miqyaslı fəlakət hesab etmirdi, bəşər nəslinin son dərəcə güclü mənəvi-əxlaqi immunitetə malik olmasına və son nəticə etibarilə qələbə çalacağına əmin idi.

Dissertasiyanın *"Dən Braunun əsərlərində sintetik detektiv romanın xüsusiyyətləri"* adlanan *ikinci* fəsli müasir Amerika ədəbiyyatında özünəməxsus yer tutan, "ciddi" və "əyləncəli" ədəbiyyatları maksimum yaxınlaşdıran, yaradıcılığında postmodernist deyim tərzinin prinsiplərindən uğurla istifadə edən, əsərlərində detektiv romanın və elmi-texniki fantastikasının elementlərini üzvi vəhdətdə birləşdirməyə nail olan Dən Braunun dünyanın müxtəlif dillərinə, o cümlədən Azərbaycan dilinə də tərcümə olunmuş "Da Vinçi şifrəsi"[2] romanı təhlil olunur. Bu əsər XX əsrin

---

[1] Ramsey G.C. Agatha Christie. Misstress of Mystery. New York: Dodd, Mead Company, 1967, p.30

[2] Brown D. The Da Vinci Code. New York: Anchor Books, 2003, 600 p.

sonu – XXI əsrin əvvəllərində ədəbi-bədii fikirdə o, cümlədən detektiv janrda özünü büruzə verən bir sıra önəmli xüsusiyyətləri təcəssüm edir.

Dən Braun müasir dünya ədəbi-bədii prosesinə mifik-intellektual, konspiroloji triller səciyyəli əsərlərin müəllifi kimi daxil olmuşdur. Detektiv janra çağdaş postmodernist deyim tərzinin prinsiplərini yaradıcı şəkildə tətbiq edən Dən Braun, insan hissiyyatına deyil, onun təxəyyül qabiliyyətinə, dünyanı gözlənilməz görmə bucağından müşahidə etmək və dəyərləndirmək bacarığına müraciət edir. Bu, sənətkara oxucunun yaradıcılıq potensialını səfərbər etməyə, əsərdə cərəyan edən hadisələrin səbəbini və nəticəsini müstəqil şəkildə araşdırmasına, fəal iştirakçıya çevirməyə imkan verir. Dən Braunun əsərlərində oxucu bəşər tarixinin mübhəm məqamlarının işıqlandırılmasında yazıçı ilə birlikdə iştirak edir, süjetin gözlənilməz peripetiyalarından məharətlə istifadə edən sənətkar oxucunu qarşısında detektiv tapmacasının yeni, krossvordvari intellektual növü ilə üz-üzə qoyur və bu tapmacanın cavabını müstəqil şəkildə tapmağa sövq edir.

Klassik detektivdən fərqli olaraq, "Da Vinçi şifrəsi" romanı oxucunun yalnız yüksək müşahidə qabiliyyəti ilə kifayətlənmir, eyni zamanda ondan geniş erudisiya, Orta əsrlər və İntibah dövrü haqqında dərin biliklər tələb edir.

Özünün ilk əsərlərində, məsələn "Rəqəmsal qəsr"[1] romanında yazıçı bədii kamillikdən uzaqdır; bu əsərdə süjet bəsit, hadisələr və xarakterlər qeyri-realdır. Lakin bununla yanaşı, bu əsərdə, ümumiyyətlə, Dən Braunun yaradıcılığı üçün səciyyəvi olan bir cəhət – sənətkarın oxucunun diqqətini nəzərdə tutduğu problem ətrafında cəmləşdirmək qabiliyyəti özünü büruzə verir.

Oxucuların diqqətini sensasiyalı məlumatlarla cəlb etməyə çalışan müəllif, eyni zamanda əsəri qavranılması və izahı çətin olan terminlərlə yükləyir. Lakin paradoksal şəkildə bu çətinlik oxucunun diqqətini yayındırmır, onu düşünməyə, tanış olmadığı anlayışların mənasını araşdırıb üzə çıxarmağa təhrik edir.

"Rəqəmsal qəsr" romanı Dən Braun yaradıcılığının bir cəhətini də – zamanın nəbzini tutan mövzulara müraciət etmək bacarığını da ortaya qoyur.

Dən Braun ilk baxışdan aydın və anlaşıqlı görünən dünyanın əslində üstü açılmamış, tapmacalarla dolu olması qənaətindədir və oxucunu onun tarixi sirlərini açmağa sövq edir. Məhz buna görə də onun əsərlərini

---

[1] Brown D. Digital Fortress. St. Martin's Paperbacks. 2004, 430 p.

konspiroloq sənətkar yaradıcılığının məhsulu hesab etmək olar.

Dən Braun oxucu diqqətini cəlb etməyə, onu əyləndirməyə hesablanmış klassik nümunələrdən fərqli olaraq, bəsit oxucu səviyyəsinə enmir, əksinə, onu düşünməyə, intensiv şəkildə dünya haqqında yeni-yeni biliklər əxz etməyə təhrik edir. Bu məqsədlə yazıçı, bir qayda olaraq, elita üçün nəzərdə tutulmuş intellektual roman janrını detektiv elementlərin hesabına geniş oxucu kütlələrinin qavradığı ədəbi-bədii nümunələrə çevirmək işləyir. Onun "Da Vinçi şifrəsi" əsəri bu istiqamətdə uğurlu addım hesab oluna bilər: bu romanda müəllif özünün təkrarolunmaz şəxsi bədii kodunu yaratmağa, yeni intellektual – detektiv – fantastik roman janrının əsasını qoymağa nail olmuşdur. 2006-cı ildə çap olunan əsər tez bir zaman ərzində bestsellerə çevrilmiş, bir il ərzində onun 40 milyon nüsxəsi satılmış, kitab Hollivudda ekranlaşdırılmışdır.

"Da Vinçi şifrəsi" romanında Dən Braun bir tərəfdən tədqiqatçılar tərəfindən ciddi elmi fərziyyə qismində ortaya qoyulmuş "Müqəddəs qan, Müqəddəs Piyalə" əsərində öz əksini tapmış faktlara əsaslanan, daha doğrusu, bədii təxəyyülün gücü ilə hələ sübuta yetirilməmiş hipotetik mülahizələri "gerçəkəşdirilmiş", oxucuları onların guya, həqiqətən baş verdiyinə inandırmağa nail olmuşdur. Nəticədə, "Dən Vinçi Kodu" əsəri bir tərəfdən çağdaş roman janrının böhran durumunun səbəblərini üzə çıxarmış, digər tərəfdən bu böhranın aradan qaldırılmasının ən kəsə yollarından birini müəyyən etmişdir.

"Da Vinçi şifrəsi" əsərinin güclü beynəlxalq rezonans yaratmasının əsas səbəbləri oxucu marağını maksimum cəlb edə bilməsi, humanitar elmin, tarixin, fəlsəfənin, teologiyanın ən mürəkkəb problemlərini anlaşıqlı dildə verə bilməsi ilə yanaşı, onun katolik kilsəsinin doqmalarına sərgilədiyi münasibətlə bağlıdır. Məlumdur ki, hal-hazırda, ümumiyyətlə, xristian dini, xüsusilə onun ən qüdrətli qollarından biri olan katolik kilsəsi bir sıra səbəblərə görə dərin böhran keçirir: Qərb aləmində absentizm, dini doqmalara və dəyərlərə laqeydlik əhval-ruhiyyəsi hökm sürür. Belə bir şəraitdə "Da Vinçi şifrəsi" romanı ideya məzmunu etibarilə katolizmə sarsıdıcı zərbə idi. Kilsə başçıları bunu dərk edirdilər və nəyin bahasına olursa-olsun, əsərin təsir gücünü zəifləţməyə cəhd göstərirdilər. Heç də təsadüfi deyildir ki, bu əsər son dərəcə operativ şəkildə "qadağan qoyulmuş kitablar" indeksinə "layiq görüldü".

"Da Vinçi şifrəsi" romanında minilliklər ərzində formalaşmış, bu və ya digər səbəbə görə bəzən ilkin mənası unudulmuş, yaxud təhrif olunub tamamilə yeni məna kəsb etmiş, lakin bütün hallarda bəşər nəslinin inkişafında mühüm rol oynamış simvolların əsl ruhunu üzə çıxarmağa və

təcəssüm etməyə cəhd göstərilmişdir.

Bəşər nəslinin keçdiyi mənəvi-tarixi yolun bəzi mübhəm səhifələri ilə bağlı müəllifin irəli sürdüyü fərziyyələri katolik kilsəsinin, heç bir şübhə doğurmayan həqiqətlər kimi qəbul etdiyi, doqmaya çevirdiyi müddəaların əleyhinə çevrilmişdir.

Əsər Yaxın Şərqin mürəkkəb və ziddiyyətli tarixindən xəbərdar olan mütəxəssislərin də etirazına səbəb olmuşdur: onların fikrincə Dən Braun dinin tarixi ilə bağlı populyar ədəbiyyatda özünə yer almış səthi məlumatlar əsasında mülahizələr yürüdür, özünün fərziyyələrini qurur. Bununla yanaşı, müəllif xristian dininin bir sıra qaranlıq məqamlarını sənətkar təxəyyülünün köməyi ilə işıqlandırmağa cəhd göstərmişdir və nəticədə bəşər nəslinin sosial baxımdan təşəkkülü və mənəvi-əxlaqi inkişafı ilə bağlı bir sıra köklü həqiqətləri üzə çıxarmağa və bədii vasitələrlə izah etməyə nail olmuşdur. Bu, hər şeydən əvvəl, cəmiyyətin formalaşmasında mühüm rol oynamış qadın-kişi başlanğıclarının münasibəti, onların dialektik vəhdəti problemlərinin qoyuluşu və bununla bağlı müəllifin oxucularda yaratdığı təsəvvürlər sistemi ilə əlaqədardır.

Dən Braun Qərb xristianlığını bəşəriyyətin mədəni-mənəvi inkişafında qadın başlanğıcının rolunu azaltmaqda günahlandırır. Yazıçı belə hesab edir ki, bəşər mədəniyyəti qadın və kişi başlanğıclarının dialektik münasibətləri zəminində formalaşır. Onun fikrincə, bəşər tarixi inandırıcı şəkildə sübuta yetirir ki, bu başlanğıcların birinin iştirakı məhdudlaşanda labüd şəkildə mədəniyyətin harmonik vəhdəti pozulur. Katolizm bu həqiqətləri insanlardan gizlətməklə Xristosun timsalında kişi başlanğıcının rolunu şişirtmişdir. Yeri gəlmişkən, Dən Braunun gəldiyi bu nəticə, məzmun etibarilə postmodernizmin əsas tənqid hədəfi olan loqosentrizmin meydana gəlməsi ideyası ilə səsləşir. Yazıçı Qərb düşüncə tərzinin məruz qaldığı böhranların səbəbini kişi başlanğıcını təmsil edən Xristosun Ata Allahın adından danışması və bununla da humanist dəyərlər haqqında birtərəfli təsəvvür yaratması ilə izah edir. Bu isə o deməkdir ki, bütün insanlar Allahın övladları olduqlarına görə, onun sevdiyi kimi sevilməli, onun üstün tutduğu mənəvi-əxlaqi dəyərlər əsasında yaşamalı və fəaliyyət göstərməlidir. Avropa xristianlığı ardıcıl şəkildə kişi başlanğıcının rolunu şişirtməklə qadına mənfi münasibətin formalaşmasına meydan açır. Dən Braun orta əsrlərdə və yeni dövrün başlanğıcında Qərbi Avropada katolik inkviziyasının "ifritələrə" qarşı amansız mübarizəsini qadın-kişi başlanğıcları arasında dialektik vəhdətin pozulması ilə izah edir.

"Da Vinçi şifrəsi" romanının baş qəhrəmanlarından biri olan rahib Saylas, katolizmdə hökm sürən bu birtərəfliliyin sirlərini aşkarlamağa

çalışır. O əmindir ki, Leonardo da Vinçinin kodunu açmaqla Qərb tarixinin yeni həqiqətə əsaslanan konsepsiyasını yaratmaq mümkündür. Yalnız bu halda Vatikanın uzun əsrlər boyu dünya xalqlarından ciddi-cəhdlə gizlətdiyi, məsələn, yaxın dini konsepsiyaları olan islamla xristianlıq arasında dəfolunmaz uçurum yaradan Vatikanın təhriki ilə Avropa xalqlarının Yaxın Şərq xalqlarına qarşı apardıqları səlib müharibələrinin əsl səbəblərini üzə çıxarmaq mümkündür.

Yeri gəlmişkən, əsərdə universal səciyyəli, bütün gizli sirlərin açarı kimi təqdim olunan Da Vinçi şifrəsi türk xalqlarının da tarixini, inanclarını yenidən nəzərdən keçirməyə və dəyərləndirməyə zəmin yaradır.

Dən Braunun "Da Vinçi şifrəsi" əsərinin ictimaiyyətdə dərin rezonans oyatmasının əsl səbəbi xristianlığın mübhəm səhifələrinin sirlərini dahi sənətkar Leonardo da Vinçinin şifrə açarı ilə açmaq cəhdi ilə bağlıdır. Bu, xüsusilə ona görə zəruridir ki, XXI əsrin əvvəllərində son dərəcə dərin böhrana məruz qalmış katolizm nəinki tarixi-elmi həqiqətdən, hətta həqiqətlə bağlı irəli sürülən bədii fərziyyələrdən və ehtimallardan da qorxur.

Romanda müəllif erkən xristianlıq və onun təsisatları ilə bağlı mövcud olan, hal-hazırda müəyyən səbəblərə görə ilkin mənaları unudulmuş yaxud təhrif olunmuş simvolları detektiv prinsiplərindən istifadə edərək açmağa cəhd göstərir. Əlbəttə, Dən Braun başa düşür ki, uzun əsrlər boyu katolik kilsəsinin rəhbərliyi tərəfindən məqsədyönlü şəkildə ört-basdır edilmiş xristianlığın təşəkkülü ilə bağlı həqiqətləri yalnız bədii təxəyyülün vasitəsilə açıqlamaq müşkül məsələdir. Məhz buna görə də, o, belə hesab edir ki, ədəbi-bədii fikrin əsas vəzifələri oxucunun dərketmə bacarığını fəallaşdırmaq, onda mövcud faktlara yaradıcı-tənqidi münasibət formalaşdırmaq, tarixin sirlərini müstəqil şəkildə açmağa vadar etməkdir. Bu məqsədlə Dən Braun əsərdə cərəyan edən hadisələr vasitəsilə xristianlıqla bağlı mövcud işarə və simvolları ön plana çəkməklə oxucunu onların ətrafında düşünməyə vadar etməyə çalışır. Bu, postmodernist dövrdə detektiv roman janrının, müəllifin oxucu ilə yaratmaq istədiyi interaktiv münasibətlər sisteminə misal ola bilər.

Dən Braun belə bir fərziyyədən çıxış edir ki, xristianlıqdan əvvəl Qadın-Anaya sitayiş prinsiplərindən çıxış edən bütpərəstlik bəşər mədəniyyətinin aparıcı məqsədi ilə, onun mənəvi dəyərlərlə bağlı rəhbər tutduğu həqiqətə qat-qat daha yaxın idi. Xristianlığın özü də bütün tarixi boyu müxtəlif vasitələrlə bu həqiqəti gizlətməyə cəhd göstərsə də, bunu bacarmır: Da Vinçi kodu əsl həqiqəti üzə çıxarmağa xidmət edir. Məsələn, böyük sənətkarın kod-açarı ilə "danışmağa" başlayan ikonalar təkidlə sübuta yetirirlər ki, onlarda təsvir olunan qadın ilkin mənşəyi etibarilə heç

də İsanın anası Müqəddəs Məryəm deyildir, ondan qat-qat qədimdir, həyatın başlanğıcını təşkil edən Qadın-Ana obrazıdır. Bu qadın yer üzünə həyat gətirir. Onun qucağındakı da xristianlığın iddia etdiyi kimi, Allahın oğlu Allah Xristos deyil, Ananın həyat verdiyi Kişi başlanğıcıdır.

Xristianlığın bütün mümkün vasitələrlə xalqdan gizlətdiyi bu həqiqətin dərki Dən Braunun fərziyyəsinə görə Müqəddəs torpaqda təşəkkül tapmış Sion Prioratı ordeninin yaranmasına təkan verir. Bu ordenin üzvləri olan tampliyerlər (məbəd gözətçiləri) kasıbçılıqla yaşamalı, müdrikliyin sirlərinə yiyələnməli idilər. Onlar ağ rəngli paltar geyinirdilər. Bu, tampliyerlərin dünyanın bütün nemətlərindən əl üzmələrinin, vahid Allaha xidmət etməklərinin rəmzi idi.

Dən Braun göstərir ki, xristian kilsəsinin aramsız təqibləri ilə bağlı min-bir çətinliklə üz-üzə gələn Sion Prioratı XX əsrin sonlarında fəaliyyətini dayandırmamışdır. Bu gün onun üzvləri əvvəlki kimi "tampliyerlər" adlansalar da, üzvü olduqları ordenin sirlərini mühafizə etməkdə davam edirlər, onun mənəvi-əxlaqi dəyərlərinə riayət edirlər. Əsərdə Orta əsrlərdə Qərbi Avropa dünyaduyumunun təşəkkülündə əhəmiyyətli rol oynamış Müqəddəs Piyalə obrazına da işarə edilir. Müəllif göstərir ki, dahi sənətkar Leonardo da Vinçi də ordenin digər üzvləri kimi, Qabın harada olmasını bilirmiş və yaradıcılığı ilə bilgisini simvolik şəkildə ifadə etmişdir. Əslində Qabın özü də maddi varlıq deyil, metaforik məna daşıyır. Bu, Xristosun "gizli görüş" zamanı öz şagirdlərinin simasında bütün bəşər nəslini cansız bütlərə sitayiş etməkdən imtinaya, yaranışın vahid başlanğıcına – Allaha inanmağa çağırışıdır. Dən Braun belə hesab edir ki, Leonardonun məşhur "gizli görüş" tablosunun simvolik mənası bu həqiqəti insanlara çatdırmaqdır.

Romanda tamliyerlər ordeni ilə bağlı daha bir simvolun – qızıl gülün də mənasının açıqlanmasına cəhd olunur. Müəllif ilk növbədə qızıl gülün rəngini vurğulayır: rozenkreyserlər üçün – çəhrayı xaçın cəngavərlərindən ötrü bu rəng atributiv səciyyə daşımışdır. Romanın baş qəhrəmanı Sonyerin fikrincə Qraal qabını simvolizə edən mücrü də çəhrayı rəngdədir və onun üzərində beş ləçəkli qızılgül şəkli çəkilmişdir. Dən Braun göstərir ki, beş ləçək beş hərf deməkdir: mücrüdəki kripteksti fırlatdıqda beş hərfdən ibarət "piyalə", "Vinçi" sözləri yaranır ki, bu da Leonardo da Vinçinin tampliyerlər ordeninin üzvi olmasına, onun sirlərinin daşıyıcısı qismində çıxış etməsinə işarə vurur.

Xristianlıqda istifadə olunan simvollar sistemini təhqiqat obyektinə çevirən və onları əsl xəfiyyə prinsipləri ilə araşdıran Dən Braun belə bir nəticəyə gəlir ki, Qərbi Avropada hökm sürən bu inanclar sistemi əslində

eklektik xarakter daşıyır və xristianlıq faktiki olaraq hər şeyi – bütün doqmalarını və miflərini kənardan almışdır: bir sözlə, xristianlıq bəşər cəmiyyətinə heç bir xeyir gətirməmişdir.

Məlumdur ki, postmodernist "ədəbi-bədii" fikir nümayəndələrindən "yüksək" ədəbiyyatla "alçaq" ədəbiyyat arasındakı fərqi dəf etməkdən ötrü son dövrlər ədəbi prosesin magistral yolundan kənarda qaldığı iddia olunan "marginal" janrlara müntəzəm şəkildə müraciət edirlər. Detektiv roman janrının struktur prinsiplərindən geniş istifadə edən Umberto Ekonun yaradıcılığı, ilk növbədə onun "Qızıl gülün adı" əsəri buna misal ola bilər.[1]

Dən Braun bir növ əks istiqamətdən hərəkət edir: sənətkar detektiv roman janrını böyük ədəbiyyatın imkanları hesabına zənginləşdirməyə can atır. Sənətkarın yaradıcılığında bir ədəbi-bədii prosesi sintetik şəkildə ehtiva edən yeni bədii-estetik fenomenlə üzləşirik.

Dissertasiya işinin sonunda apardığımız araşdırmaların əsas elmi müddəaları aşağıdakı kimi yekunlaşdırılır:

–Detektiv janrın nümunələri son dərəcə geniş oxucu auditoriyasına müraciət edir və bu, ilk növbədə, detektiv janrın demokratizmi, ədəbi prosesin əsas inkişaf meyilləri ilə ayaqlaşa bilməsi və öz ideya məzmunu və strukturu etibarilə yüksək mənəvi-əxlaqi dəyərlərə rəvac verə bilməsi ilə bağlıdır. Detektiv janrın nümunələri oxucudan ayıq olmağı, bütün intellektual potensialını səfərbər etməyi bacarmağı, müəlliflə intellektual yarışa girməyi tələb edir.

–Detektiv janrın inkişafında üç mərhələ qeydə alınmışdır: birinci, detektivin klassik dövrü – XIX əsrin ortalarından XX əsrin ortalarına kimi olan dövrü, mərhələni əhatə edir; ikinci, detektivin modernist dövrü – 1950-1970-ci illəri əhatə edir; üçüncü, detektiv janrın postmodernist dövrü – janrın inkişafında bu sonuncu mərhələ XX yüzilliyin 1970-ci illərində başlamış və bu günə qədər davam edir.

–Detektiv janr Xeyirlə Şərin, Kosmosla Xaosun mübarizəsini və qarşılıqlı şəkildə bir-birini tamamlaması ideyasını bütün tarix boyu əks etdirmişdir.

–Detektiv janrın klassik mərhələsini iki yarımmərhələyə bölmək mümkündür: 1) detektiv janrın irrasionalist dövrü və Edqar Allan Ponun hekayələri və 2) detektiv janrın rasionalist dövrü, A.Kristi və A.Konan Doylun əsərləri bu dövrü təmsil edir. Detektiv janrın fəlsəfəsində bu yerdəyişmə, yəni irrasionalist dünyadərkinin rasionalist dünyadərklə əvəz

[1] Umberto Eko. Qızılgülün adı (Rus dilindən tərcümə: Samir Bulut). Bakı: Qanun, 2012, 688 s.

olunması XIX əsrdə romantik və realist yaradıcılıq metodlarının bir-birini əvəzləməsinin təcəssümüdür.

–E.A.Po özünün məşhur Düpen obrazı ilə sarsılmaz, dəmir məntiqi ilə ən qaranlıq problemləri belə işıqlandırmağa qabil olan, sonralar dünya ədəbiyyatında müxtəlif variantları meydana gəlmiş ilk eksentrik xəfiyyə obrazını yaratmışdır. Onun xələfləri bu obraza mükəmməl nümunə qismində daim müraciət etmiş, onun bu və ya digər xüsusiyyətləri ilə səsləşən personajlar yaratmışlar.

–Detektiv janrın rasionalist dövrünün nümayəndəsi A.K.Doyl Şerlok Holms obrazını E.A.Ponun Düpen obrazının modeli əsasında yaratmışdır. Şerlok Holmsu oxuculara sevdirən əsas onun zəkası, dərin müşahidəçilik və təhlil etmək bacarığı ilə bağlıdır.

–İngilis yazıçısı Hilbert Kit Çesterton öz sələfi A.K.Doylun "rasionalist" tədqiqat metodundan imtina edib cinayətin üstünü intuisiyanın diktə etdiyi üsullarla açmağa üstünlük vermiş, Braun ata obrazını yaratmışdır. Braun ata cinayətin üstünü açmaq prosesində məntiqi detallardan daha çox, onun törədilməsinin mənəvi səbəblərini araşdırmağa üstünlük verir.

–Aqata Kristinin rasional düşüncəli xəfiyyə obrazı Puaro təkcə cinayətin üstünü açmaqla kifayətlənmir, o, eyni zamanda bu və ya digər səbəbə görə rəsmi dövlət orqanları tərəfindən şübhəli şəxs kimi oxucuya təqdim olunur.

–Dən Braun əsərlərində "ciddi" və "əyləncəli" ədəbiyyatları birləşdirmiş, yaradıcılığında postmodernist deyim tərzinin prinsiplərindən istifadə edərək, intellektual detektiv roman yaratmışdır. Klassik detektivdən fərqli olaraq Dən Braunun romanları oxucunun yalnız müşahidə qabiliyyəti ilə kifayətlənmir, eyni zamanda ondan intuisiya tələb edir.

–Dən Braun "Da Vinçi şifrəsi" romanında detektiv janrın struktur prinsiplərindən geniş şəkildə istifadə edir. Katolizmin insanlardan gizlətdiyi həqiqətləri təxəyyül ilə açmağa çalışır. Onun fikrincə, bəşər tarixi inandırıcı şəkildə sübuta çalışır ki, qadın və kişi başlanğıclarının iştirakı məhdudlaşanda mədəniyyətin harmonik vəhdəti pozulur. Katolizm bu həqiqətləri insanlardan gizlədərk Xristosun timsalında kişi başlanğıcının rolunu şişirtmişdir. Yazıçı yaratdığı xəfiyyə obrazı (Robert Lenqdon) vasitəsilə xristianlıqda istifadə olunan simvollar sistemini tədqiqat obyektinə çevirir.

Tədqiqatın əsas məzmunu və müddəaları nəşr olunmuş aşağıdakı məqalə və tezislərdə öz əksini tapmışdır:

1. Detektiv janrının xüsusiyyətləri və ilk klassik xəfiyyə obrazı // Elmi məqalələr məcmuəsi. Bakı: Bakı Slavyan Universiteti, 2012, № 4, s. 167-171
2. Dən Braun və intellektuallıq / ADMİU-nun 90 illik yubileyinə həsr edilmiş beynəlxalq konfrans. Bakı: ADMİU, 2012, s.136-139
3. Dən Braunun "Da Vinçi Kodu" əsərində dinə yeni münasibət (I hissə) // Dil və Ədəbiyyat. Bakı: Azərbaycan Dillər Universiteti, 2013, № 2, s. 229-237
4. Hilbert Çestertonun yaradıcılığında detektiv xəfiyyə / Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika elmi konfransının materialları: 2 clilddə, II c. Bakı: Azərbaycan Dillər Universiteti, 2013, s. 249-251
5. Мир символов в романе Дэна Брауна "Код Да Винчи" // Ученые записки Таврического Национального Университета им. В.И.Вернадского. Серия «Филология. Социальные коммуникации». Т. 26 (65), Симферополь, 2013, № 2, с.524-528
6. Dən Braunun "Da Vinçi Kodu" əsərində dinə yeni münasibət (II hissə) // Elmi xəbərlər. Bakı: Azərbaycan Dillər Universiteti, 2014, № 4, s. 264-272
7. Dən Braunun "Da Vinçi kodu" əsərində tarixi həqiqətlər // Elmi xəbərlər. Bakı: Azərbaycan Dillər Universiteti, 2015, № 6, s.187-195
8. Detektiv janrın klassik, modernist və postmodernist mərhələləri // Dil və Ədəbiyyat. Bakı: Azərbaycan Dillər Universiteti, 2016, № 3, s.162-172

Фахрия Джаваншир гызы Рагимова

# ЛИТЕРАТУРНО-ХУДОЖЕСТВЕННЫЕ ОСОБЕННОСТИ ДЕТЕКТИВНОГО ЖАНРА В СОВРЕМЕННОЙ АМЕРИКАНСКОЙ ЛИТЕРАТУРЕ
(на основе творчества Дэна Брауна)

## Резюме

Диссертация, представленная на защиту, посвящена разбору особенностей детективного жанра в современной американской литературе, охватывающей произведения, получившие широкую известность в конце XX – начале XXI вв.

Во *Введении* диссертации обосновывается актуальность темы, определяются цели и задачи исследования, его научная новизна, теоретическая и практическая значимость, указываются основные положения, выносимые на защиту, даются данные по апробации и структуре исследования.

Первая глава диссертации под названием *«Зарождение детективного жанра и его особенности»* состоит из четырех разделов. В разделах первой главы исследуются романтические, рационалистические, интуитивные свойства жанра детектива, анализируются различные аспекты синтеза рационализма и интуиции. Подобная система позволяет выявить индивидуальные особенности творчества каждого отдельного писателя, с одной стороны, и проследить основную линию развития жанра детектива, с другой.

Вторая глава исследования называется *«Особенности синтетического детективного романа в произведениях Дэна Брауна».* В этой главе иссследователь подробно останавливается на творчестве Дэна Брауна – видного американского писателя начала XXI столетия, значительно расширившего идейное содержание всего детективного жанра в целом. В первом разделе II главы подробно разбираются история создания, идейное содержание и идеологические истоки всемирно известного романа Дэна Брауна «Код Да Винчи», переведенного на многие языки мира, и на азербайджанский язык в том числе.

Как известно, художественный мир Дэна Брауна строится на системе символов, которые могут трактоваться с самых различных точек зрения. Так, раскрывая во втором разделе II главы суть и

значение этих символов, диссертант дает таким образом своеобразный интеллектуальный «ключ» для последующих исследований творчества Дэна Брауна, которое значительно расширяло рамки детективного жанра.

В *Заключении* диссертации обобщены основные результаты и выводы исследуемой темы.

Fakhriyya Javanshir Rahimova

# LITERARY AND ARTISTIC PECULIARITIES OF DETECTIVE GENRE IN MODERN AMERICAN LITERATURE
(based on Dan Brown's creative activity)

Summary

The thesis deals with the analyses of peculiarities of the detective genre in American literature. This analysis is given on the samples of world-famous works of literature created at the end of XX- beginning of XXI centuries.

The relevance of the theme, the aims and tasks of the research, the academic novelty of work, its theoretical and practical importance, the main points submitted for the consideration are disclosed in the introduction part , that also outlines structure of the dissertation and its approbation.

The first chapter of the dissertation entitled *"The Origin of Detective Genre and its Peculiarities"* consists of four parts. Romantic, rationalistic and intuitive aspects of detective genre are researched in the first chapter. Different aspects of rationalism and intuition synthesis are also analyzed. Such a system gives an opportunity to reveal both individual peculiarities of each writer's creativity and trace development line of the detective genre.

The second chapter of the dissertation is entitled *"The Peculiarities of Synthetic Detective Novel in Dan Brown's Works"*. In this chapter the author studies Dan Brown's creativity. Dan Brown is an outstanding American writer, who has developed the content and expanded borders of the detective genres in general. Dan Brown's world famous novel "The Da Vinci Code" the content of the novel, its ideological sources are researched in the first part of the second chapter. It must be pointed out that the novel "The Da Vinci Code" has been translated into many languages, including Azerbaijani.

It's known that the artistic world of Dan Brown's works is based on symbols that can be interpreted from quite different points of view. So, by disclosing the essence and meaning of these symbols, the research offers a very original intellectual key for the subsequent studies of Dan Brown's creativity .

The conclusion of the thesis summarizes main results and outcomes of the topic studied.

Çapa imzalanıb: 03.07.2018
Format: 60x84 1/16. Tiraj: 100.

«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
*e-mail: mutarjim@mail.ru*

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

На правах рукописи

ФАХРИЯ ДЖАВАНШИР гызы РАГИМОВА

# ЛИТЕРАТУРНО-ХУДОЖЕСТВЕННЫЕ ОСОБЕННОСТИ ДЕТЕКТИВНОГО ЖАНРА В СОВРЕМЕННОЙ АМЕРИКАНСКОЙ ЛИТЕРАТУРЕ
(на основе творчества Дэна Брауна)

5718.01 – Мировая литература (литература США)

АВТОРЕФЕРАТ

диссертации на соискание ученой степени
доктора философии по филологии

Баку – 2018